**“PAŞA Bank” ASC-nin Miles&Smiles ko-brend məhsulu üzrə**

**mil hesablama təlimatı**[1]

## 1. Ümumi müddəalar

1.1. PAŞA Bank ASC-nin təqdim etdiyi Miles&Smiles proqramı üzrə abunəlik və onun əsasında təqdim edilən kartlar səyahət edən fiziki şəxslər (bundan sonra Müştəri adlanacaq) arasında nağdsız əməliyyatların artırılması məqsədilə PAŞA Bank (bundan sonra Bank adlanacaq) və Türk Hava Yolları (bundan sonra THY adlanacaq) ilə birgə yaradılan ko-brend məhsuludur.

1.2. Bu təlimat Bankın rəsmi səhifəsində yerləşdirilərək mütəmadi olaraq yenilənəcəkdir və ko–brend məhsulun proqramlarından istifadə edəcək müştəri qaydalarla tanış olub onları qəbul etmiş hesab edilir.

## 2. Əsas anlayışlar

2.1 Abunəlik – Miles&Smiles proqramı çərçivəsində təqdim olunan mil hesablanması və digər üstünlüklərdən yararlana bilmək üçün qoşulması zəruri olan ödəniş planıdır.

2.1.1 Abunəlik haqqı – Abunəliyə qoşulmaq və mütəmadi olaraq istifadə etmək üçün tələb olunan minimal xidmət haqqıdır.

2.2 Miles&Smiles kartı – Bu məhsul üzrə Bank tərəfindən çap olunmuş xüsusi proqramlı kart. Miles&Smiles kartı ilə nağdsız ödənişlər həyata keçdikdə hər əməliyyat üzrə Bank tərəfindən millər hesablanır. Məhsul üzrə proqramı əhatə edən aşağıdakı kart məhsulları təqdim olunur:

- Visa Platinum
- MasterCard Black Edition
- MasterCard World Elite
- Visa Business Platinum
- MasterCard Business Preferred

2.3 Mil – Bankın və THY-nın təyin etdiyi ölçü vahididir və pula çevrilmir. Millər, Miles&Smiles kartı ilə nağdsız ödənişlər edərkən hesablanır və THY və Star Alliance şirkətlərində uçuş biletinə dəyişdirilir. Millərin növləri aşağıdakılardır:

2.3.1 Xoşgəldin milləri – Mil hesablanan dövriyyə şərti yerinə yetirməklə hər abunəlik ilində bir dəfə müştəriyə hesablanan əlavə millər (Əlavə 1). Bank tərəfindən keçirilən müvafiq kampaniyalar ərzində Xoşgəldin millərinin sayı və hesablama şərtləri dəyişilə bilər.

2.3.2 Ödənişlər üzrə millər – Alış–veriş (POS və e–commerce üzrə) zamanı Miles&Smiles kartı ilə edilən ödənişlərə görə hesablanan millər.

2.3.3 Kampaniya çərçivəsində təqdim olunan millər – Bank və ya partnyorlar tərəfindən keçirilən kampaniyalar müddətində əlavə hesablanan millər.

2.3.4 Əlavə millər – Bankın partnyorlarından alış–veriş edildikdə Bank tərəfindən əlavə hesablanan millər

2.3.5 Düzəliş milləri – hər hansı düzəliş nəticəsində yaranan və ya itirilən millər. Düzəliş milləri mil balansını artıra və ya azalda bilər. Bank tərəfindən aşkar olunan – dələduzluq əməliyyatlar üzrə hesablanan millər birtərəfli qaydada ləğv edilə bilər və Bankın qərarı ilə Müştəri ilə

---

[1] Bank, müştəriləri 5 gün əvvəlcədən rəsmi məlumatlandırmaqla millərin hesablanmasını dayandıra və ya digər güzəştlərlə əvəz edə bilər.

münasibətlər dayandırıla bilər. Millərin texniki səbəbdən səhv hesablanması aşkar olunarsa Bank tərəfindən düzəlişlər aparıla bilər və ya Müştəri Bankın Əlaqə Mərkəzinə müraciət edərək hesablanmış millərin yenidən hesablanmasını tələb edə bilər.

2.4 Müştərinin cari hesabı – Müştəriyə bu məhsul çərçivəsində təqdim olunmuş abunəlik proqramına və kart növünə bağlı olan və əməliyyatların uçotunun aparıldığı cari hesab.

2.5 THY-nın mil hesabı – THY təqdim etdiyi şəxsi kabinet və mobil əlavədə əks olunan millər.

2.6 TK nömrəsi – THY-nın Miles&Smiles abunəlik proqramı çərçivəsində təqdim etdiyi fərdi identifikasiya nömrəsi.

2.7 MCC kodu – 4 rəqəmdən ibarətdir, satış məntəqəsinin fəaliyyət növündən asılı olaraq Beynəlxalq Ödəniş Sistemləri tərəfindən ödəniş növünün seqmentini müəyyən edən kod.

2.8 Partnyor – Miles&Smiles abunəlik proqramı istifadəçilərinə potensial olaraq mal, iş və ya xidmət təqdim edən və Məhsul çərçivəsində Bankla əməkdaşlıq edən tərəf.

2.9 Miles&Smiles hədiyyə kuponu – Partnyor və ya digər fiziki şəxs tərəfindən Müştəriyə hədiyyə qismində təqdim edilən və üzərində olan kod əsasında Bankın Müştəriyə kart və abunəliyi sifariş etməsini təmin edən kupon.

2.10 Kart valyutası - Miles&Smiles kartları AZN və USD olmaqla iki valyutada təqdim edilir. USD kartlarında mil hesablanması əməliyyat aparılan gün Mərkəzi Bankın rəsmi məzənnəsinə uyğun olaraq AZN ekvivalentində aparılır. AZN kartlarında da həmçinin, xarici valyutada ödəniş etdikdə mil hesablanması əməliyyat aparılan gün Mərkəzi Bankın rəsmi məzənnəsinə uyğun olaraq müvafiq valyutanın ekvivalentində aparılır. Nağd və nağdsız mübadilə əməliyyatları zamanı Beynəlxalq Ödəniş Sistemləri tərəfindən fərqli konvertasiya məzənnəsi və komissiyalar tətbiq edilə bilər.

2.11 Ödəniş forması - Miles&Smiles kartları pulsuz təqdim edilir. Əsas və əlavə kartlar Miles&Smiles proqramı üzrə abunəlik haqqı ödənildikdən sonra istifadəyə verilir. Miles&Smiles proqramı üzrə ilk ilin abunəlik haqqı kart sifariş olunan zaman ödənilir, digər illərin abunəlik haqları hər növbəti istifadə ilinin əvvəli ödənilməlidir. 01.09.2023-cü il tarixinədək birdəfəlik və ilbəil ödəniş üsulları ilə sifariş olunan kartlar üzrə xidmət haqqının ödənilməsi qaydası kartların etibarlılıq müddətinin sonunadək tənzimlənəcəkdir, həmin kartlar üzrə "xoşgəldin milləri"-in hesablanması qaydası da həmçinin, müvafiq olaraq sifariş zamanı tətbiq olunan şərtlərə uyğun qaydada icra olunacaqdır. 5 (beş) təqvim günü ərzində abunəlik haqqı ödənilmədiyi halda Miles&Smiles abunəliyi və kartı deaktiv olunur.

2.12 Əlavə kartlar – Əsas kartın TK nömrəsinə bağlı olur və toplanan millər əsas kartın mil hesabına əlavə edilir. Əlavə kartlara əsas kartlarla eyni imtiyazlar ("Lounge Key" biznes zallarına giriş, pulsuz konsyerj, SMS məlumatlandırma xidmətləri və s.) təqdim olunur və eyni tariflər (eyni nağdlaşdırma limitləri və s) tətbiq edilir.

## 3. Müraciət və istifadə qaydaları

3.1 Miles&Smiles abunəlik proqramının və kartların sifarişi üçün müraciətlər www.miles.pashabank.az səhifəsi üzərindən və digər alternativ onlayn satış kanalları vasitəsilə qəbul olunur.

3.2 Kartların növlərinə görə abunəlik qiyməti və tariflər www.miles.pashabank.az səhifəsində yerləşdirilib.

3.3 Miles&Smiles proqramına abunəliyi və kartı üzrə onlayn şəkildə daxil olan müraciətə Bank tərəfindən 5 (beş) iş günü ərzində baxılır və məhsul (kart) hazır olduqda Müştərinin sifarişdə qeyd etdiyi mobil nömrəsi ilə kartın ünvana çatdırılması üçün kuryer vasitəsilə əlaqə saxlanılır. Sifariş zamanı əgər sənədlərdə və ya doldurulan məlumatlarda hər hansı uyğunsuzluq olduqda Bank müştəridən 30 (otuz) təqvim günü ərzində düzgün məlumatları və sənədləri istəyir. Bu müddət ərzində müvafiq məlumatlar və sənədlər təqdim olunmadıqda müştərinin abunəlik və kart üzrə sifarişi ləğv olunur və ödənilən abunəlik haqqı cərimə məbləği tutulmaqla ödəniş kartına geri qaytarılır.

3.4 Müraciət edən Müştəri cari THY-nın Miles&Smiles proqramının iştirakçısı olduqda sifariş zamanı xüsusi xanada cari TK nömrəsini qeyd etməlidir.

3.5 Müştərinin Bankda yalnız bir mil hesabı ola bilər. Bir Müştərinin bir neçə TK nömrəsi varsa, onların balansı bank tərəfindən birləşdirilmir və Miles&Smiles kartının sifariş zamanı onlardan yalnız biri seçilərək qeyd edilməlidir.
3.6 Müştəri THY Miles&Smiles proqramının üzvü olmadıqda Miles&Smiles kartı və abunəliyi üçün müraciət etdikdə TK nömrəsi Bank tərəfindən yaradılacaqdır və daha sonra Miles&Smiles kartının üzərində qeyd olunacaqdır.
3.7 Müştəri THY Miles&Smiles proqramının üzvü olmadıqda ona Classic statuslu TK nömrəsi yaradılır.
3.8 Miles&Smiles hədiyyə kuponu Müştəriyə təqdim olunduğu halda sifariş zamanı kupon üzərində qeyd olunan kodu Bankın www.miles.pashabank.az səhifəsində və ya digər alternativ onlayn satış kanallarda müvafiq "Kuponun kodu" xanasında qeyd etməklə hədiyyə kartını əldə edə biləcək.
3.9 Müştəri təqdim olunan "Promokod"u sifariş zamanı Bankın www.miles.pashabank.az səhifəsində və ya digər alternativ onlayn satış kanallarda müvafiq "Promokod" xanasında qeyd etməklə əlavə millər qazana bilər.
3.10 Bank tərəfindən məhsul üzrə yeniliklər barədə məlumat mütəmadi olaraq müxtəlif kanallar vasitəsilə Müştəriyə ötürülür.

## 4. Millərin hesablanması və istifadə olunması qaydaları

4.1 Müştəri öz mil balansını aşağıda göstərilən üsullarla izləyə bilər:
1. Bankın Mobil Əlavəsi üzərindən
2. THY-nın Mobil Əlavəsi üzərindən

4.2 Millərin hesablanma qaydası – hər əməliyyat üzrə Əlavə 3-də qeyd olunan əmsala uyğun olaraq riyazi yuvarlaqlaşdırma metodundan istifadə edilməklə hesablanır.
4.3 Hesablanmış millərdən 36 (otuz altı) ay ərzində THY mil balansında istifadə etmək mümkündür.
4.4 Bank tərəfindən aşağıda qeyd olunan əməliyyat növləri üzrə mil hesablanmır:
- Bank qarşısında öhdəliklərin icrası ilə bağlı ödənişlər
- Pul köçürmələri
- Nağdlaşdırma əməliyyatları (o cümlədən, pos-cash)
- Mədaxil əməliyyatları
- İnzibati xarakter daşıyan icbari ödənişlər (vergi, rüsum, cərimə və s.)

Bank tərəfindən təqdim olunan millərin hesablanma mexanizmi müxtəlif kampaniyalar müddəti ərzində dəyişə bilər. Əlavə olaraq əməliyyatlar üzrə mil hesablanmayan MCC kodlar Əlavə 4-də öz əksini tapmışdır.

## 5. Partnyorlar

5.1 Partnyorlar və hesablana biləcək ekstra millər barədə ümumi məlumat Bankın www.miles.pashabank.az səhifəsində "Partnyorlar" bölməsində əksini tapmışdır.
5.2 Bank və partnyorlar tərəfindən keçirilən müvafiq kampaniyalar çərçivəsində əlavə millərin sayı və hesablama şərtləri dəyişilə bilər. Bu barədə Bank Müştəriləri kampaniyanın müddəti ərzində mövcud kanallar vasitəsilə məlumatlandıracaqdır.
5.3 Partnyordan asılı olaraq hesablanan mil fərqli tezlikdə mil balansında əks oluna bilər (gündəlik, həftəlik, aylıq, rüblük).
5.4 Partnyor şəbəkəsində edilən alış-verişlər və bütün digər hesablanan millər Bank tərəfindən hesablanır.
5.5 Partnyor şəbəkəsində aparılan əməliyyat zamanı əlavə millər hesablanmadığı halda Müştəri Banka müraciət etməlidir. Bank öz növbəsində məsələni araşdırıb hesablanmamış millərin bərpa olunmasını 5 iş günü ərzində təmin edir.

## 6. Müştərilərin məlumatlandırılması

6.1 Əməliyyatdan sonra millərin hesablanması barədə məlumat Bankın Mobil Əlavəsində öz əksini tapır. Hər-hansı əməliyyat geri qaytarılırsa (reversal və ya refund əməliyyatları) həmin əməliyyat üzrə hesablanmış millər sıfırlanır. Həmçinin Xoşgəldin millərinin hesablanması zamanı bu məqam nəzərə alınır.
6.2 Bank tərəfindən Müştərinin məlumatlandırılması üçün digər mövcud kanallardan da istifadə oluna bilər.
6.3 Müştəri ona hesablanmış millərin hesablanma qaydasının yoxlanılması üçün Bankın Əlaqə Mərkəzinə müraciət edərək bütün lazımi məlumatı əldə edə bilər.

## 7. Digər şərtlər

7.1 Sifariş zamanı Müştəri özünün daxil etdiyi məlumatların düzgünlüyünü təsdiqləyir və onlarla bağlı qanunvericiliyə uyğun olaraq tam məsuliyyət daşıyır. Məlumatlarda aşkar olunan səhvlərə görə Bank məsuliyyət daşımır. Bank sifariş zamanı Müştəri tərəfindən təqdim edilən məlumatların təkrar yoxlanılması səlahiyyətinə malikdir.
7.2 Müştərinin kart vasitəsilə edilən ilk əməliyyat tarixi əsas qeydiyyat tarixi kimi təyin olunur və gələcəkdə hesablamalar nəzərə alındıqda başlanğıc tarixi kimi qeydə alınır.
7.3 Müştəridən şəxsi məlumatlarının Bank tərəfindən üçüncü şəxslərə ötürülməsi ilə bağlı etiraz etməməsi barədə razılıq alınır.
7.4 Kartdan və Miles&Smiles abunəlik proqramından istifadə zamanı Müştəridə yarana biləcək əlavə xərclər Bank tərəfindən qarşılanmır.
7.5 Bank birtərəfli qaydada kart və Miles&Smiles abunəlik proqramı üçün daxil olan müraciətdən imtina edə bilər. Bu halda müştəri tərəfindən ödənilmiş abunə haqqı geri qaytarılacaqdır. Abunəlik haqqı ödənildikdən sonra 1 (bir) ay müddəti ərzində aktivləşdirilməmiş kartdan imtina edildiyi halda cərimə məbləği tutulmaqla ödənilmiş məbləğ müştəriyə qaytarılır.
7.6 Şübhəli hallar aşkar olunduqda Bank millərin hesablanmasından səbəbi bildirilmədən imtina edə bilər.
7.7 Müştəridən daxil olan kartın və abunəliyin yenilənməsi və/ya uzadılması sorğusuna AR Mülki Məcəlləsinin 956.3 maddəsində qeyd olunan hallarda Bank tərəfindən imtina verilə bilər.
7.8 Müqavilə müddəti ərzində Bank Müştərinin şəxsi məlumatlarını yenidən yoxlaması hüququna malikdir.
7.9 Müştəri öz mil hesabında yığılan milləri digər müştərilərin balansına THY-nın şəxsi kabinetində və ya Mobil əlavəsində göndərə bilər. Bu xidmət ödənişlidir və THY-ı tərəfindən tənzimlənir.
7.10 Müştərinin müvafiq ödəniş üzrə milləri ödənişdən asılı olaraq bir neçə dəqiqədən 30 (otuz) günədək Müştərinin mil hesabında əks olunacaqdır. Xüsusi hallarda isə qazanılmış millərin müştərinin mil hesabına köçmə müddəti 30 (otuz) gündən çox ola bilər. Hesablanmış millərin müştərinin hesabında əks olunması əməliyyatların Bank tərəfindən emal olunması əsasında aparılır.
7.11 Müştərinin Bankın mil hesabında əks olunduğu gündən 15 (on beş) təqvim günü sonra hər əməliyyat üzrə hesablanmış millər müvafiq qaydada THY-nın mil hesabında əksini tapacaqdır və THY-nın təqdim etdiyi qaydalara əsasən müvafiq kanallar vasitəsilə istifadə edilə biləcəkdir. Xüsusi hallarda isə qazanılmış millərin müştərinin mil hesabına köçmə müddəti 30 (otuz) gündən çox ola bilər.
7.12 Bank və THY tarifləri dəyişmək hüququna malikdir. Məhsul üzrə ən son tariflərə www.miles.pashabank.az səhifəsi üzərindən izləmək mümkündür.
7.13 Bank Müştəri ilə bağlanan müqavilənin müddəti ərzində öz hesablamalarının təkrar yoxlanılmasını həyata keçirə bilər və ona uyğun müvafiq düzəlişləri edə bilər.
7.14 Müştəri cari təlimata əməl etmədikdə hesablanmış millər birtərəfli qaydada ləğv edilə bilər və Bankın qərarı ilə Müştəri ilə münasibətlər dayandırıla bilər.
7.15 Abunəliyin müddəti ərzində hər hansı şübhəli hal yarandığı halda (millərin oğurlanması və s.) onun araşdırılması üçün Müştəri Bankın Əlaqə Mərkəzinə müraciət edə bilər.

## Əlavə 1

*01.09.2023-cü il tarixinədək birdəfəlik ödənişlə sifariş edilən kartlar üzrə (standart tarif) xoşgəldin milləri:*

| Proqram | Şərt | Xoşgəldin millərin sayı |
|---|---|---|
| Visa Platinum, Visa Business Platinum | Kart aktivləşdikdən sonra 3 ay ərzində minimum 3 000 (üç min) AZN nağdsız ödəniş (mil hesablanan) həyata keçirilməklə | 2000 mil |
| MasterCard Black Edition, MasterCard Business Preferred, MasterCard World Elite | Kart aktivləşdikdən sonra 3 ay ərzində minimum 5 000 (beş min) AZN nağdsız ödəniş (mil hesablanan) həyata keçirilməklə | 5000 mil |
| MasterCard World Elite | Kart aktivləşdikdən sonra 3 ay ərzində yuxarıdakı məbləğə əlavə olaraq minimum 3 000 AZN nağdsız ödəniş (mil hesablanan) həyata keçirilməklə | + 5000 mil |

*01.09.2023-cü il tarixinədək ilbəil ödənişlə sifariş edilən kartlar üzrə (standart tarif) xoşgəldin milləri:*

| Proqram | Şərt | Xoşgəldin millərin sayı |
|---|---|---|
| Visa Platinum, Visa Business Platinum | Dövriyyə şərti yoxdur, ilk mil hesablanan əməliyyatda təqdim olunur | 500 mil |
| MasterCard Black Edition, MasterCard Business Preferred | Dövriyyə şərti yoxdur, ilk mil hesablanan əməliyyatda təqdim olunur | 1000 mil |
| MasterCard World Elite | Dövriyyə şərti yoxdur, ilk mil hesablanan əməliyyatda təqdim olunur | 2000 mil |

*01.09.2023-cü il tarixinədək sifariş edilən kartlar üzrə Xoşgəldin milləri bir dəfə təqdim olunur.*

*Xoşgəldin milləri* 01.09.2023-cü il tarixindən etibarən illik abunəlik şərti ilə sifariş edilən kartlar üzrə (standart tariflər üzrə):*

| Proqram | Şərt | Xoşgəldin millərinin sayı |
|---|---|---|
| Visa Platinum, Visa Business Platinum | Kart aktivləşdikdən sonra minimum 1 000 (bir min) AZN nağdsız ödəniş həyata keçirilməklə | 500 mil |
| MasterCard Black Edition, MasterCard Business Preferred | Kart aktivləşdikdən sonra minimum 2 000 (iki min) AZN nağdsız ödəniş həyata keçirilməklə | 1500 mil |
| MasterCard World Elite | Kart aktivləşdikdən sonra minimum 4 000 AZN (dörd min) nağdsız ödəniş həyata keçirilməklə | 3000 mil |

** Xoşgəldin milləri kartın ilkin və növbəti illərin illik abunəlik haqqı ödənildikdən sonra mil hesablanan ödənişlər etməklə ilk 1 (bir) ay ərzində minimum dövriyyə şərti yerinə yetirildikdən sonra hər abunəlik ilində 1 dəfə hesablanır.*

## Əlavə 2

*Avans millərin geri qaytarılması*

Avans mil nağdsız ödənişlər vasitəsi ilə geri qaytarılmadıqda müddətin sonunda tətbiq ediləcək cərimə (Bankda olan hesablarından akseptsiz qaydada silinə bilər):

| Mil üzrə öhdəlik | Cərimə |
|---|---|
| 1 – 1000 mil | 50 AZN |
| 1001 – 2500 mil | 100 AZN |
| 2501 – 5000 mil | 150 AZN |
| 5001 – 7500 mil | 250 AZN |
| 7501 – 10000 mil | 400 AZN |
| 10001 – 15000 mil | 600 AZN |
| 15001 – 20000 mil | 750 AZN |

## Əlavə 3

*Millərin hesablanması 01.09.2023-cü il tarixinədək sifariş edilən kartlar üzrə:*

<table>
<tr><th colspan="6">Millərin hesablanma əmsalları</th></tr>
<tr><td rowspan="6">Hər 1 AZN nağdsız ödəniş üzrə hesablanan millərin minimum sayı</td><td colspan="2">Proqram</td><td>Platinum</td><td>Black</td><td>Elite</td></tr>
<tr><td colspan="2">PAŞA Bank POS–larında (e-comm daxil)</td><td>0,33 mil</td><td>0,5 mil</td><td>1 mil</td></tr>
<tr><td colspan="2">Digər bankların POS–larında (e-comm daxil)</td><td>0,33 mil</td><td>0,5 mil</td><td>1 mil</td></tr>
<tr><td colspan="2">Xarici bankların POS–larında (e-comm daxil)</td><td>0,33 mil</td><td>0,5 mil</td><td>1 mil</td></tr>
<tr><td rowspan="2">PAŞA Bank Mobil Əlavə ilə</td><td>Rabitə, kommunal, stasionar telefon, internet, TV, taksi, parkinq, sığorta, otel və turizm, digər</td><td>0,5 mil</td><td>0,5 mil</td><td>0,5 mil</td></tr>
<tr><td>İpoteka ödənişləri</td><td>0,1 mil</td><td>0,1 mil</td><td>0,1 mil</td></tr>
<tr><td>Hər 50 AZN nağdsız ödəniş üzrə hesablanan millərin minimum sayı</td><td colspan="2">Gömrük ödənişləri (MCC – 9311)</td><td>1 mil</td><td>1mil</td><td>1 mil</td></tr>
</table>

*Millərin hesablanması 01.09.2023-cü il tarixindən etibarən abunəlik əsasında sifariş edilən kartlar üzrə:*

<table>
<tr><th colspan="6">Millərin hesablanma əmsalları</th></tr>
<tr><td rowspan="6">Hər 1 AZN nağdsız ödəniş üzrə hesablanan millərin minimum sayı</td><td colspan="2">Proqram</td><td>Platinum</td><td>Black</td><td>Elite</td></tr>
<tr><td colspan="2">PAŞA Bank POS–larında (e-comm daxil)</td><td>0,33 mil</td><td>0,5 mil</td><td>0.66 mil</td></tr>
<tr><td colspan="2">Digər bankların POS–larında (e-comm daxil)</td><td>0,33 mil</td><td>0,5 mil</td><td>0.66 mil</td></tr>
<tr><td colspan="2">Xarici bankların POS–larında (e-comm daxil)</td><td>0,33 mil</td><td>0,5 mil</td><td>0.66 mil</td></tr>
<tr><td rowspan="2">PAŞA Bank Mobil Əlavə ilə</td><td>Rabitə, kommunal, stasionar telefon, internet, TV, taksi, parkinq, sığorta, otel və turizm</td><td>0,5 mil</td><td>0,5 mil</td><td>0,5 mil</td></tr>
<tr><td>İpoteka ödənişləri</td><td>0,1 mil</td><td>0,1 mil</td><td>0,1 mil</td></tr>
<tr><td>Hər 50 AZN nağdsız ödəniş üzrə hesablanan millərin</td><td colspan="2">Gömrük ödənişləri (MCC – 9311) – yalnız POS terminaldan fiziki olaraq edilən ödənişlərə aiddir.</td><td>1 mil</td><td>1mil</td><td>1 mil</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| minimum sayı | | | | |

***Nümunə:***

| Kanal | | Məbləğ (AZN) | Mil sayı (Black) |
|---|---|---|---|
| PAŞA Bank POS–larında | | 120,45 | 60,23 |
| Digər bankların POS–larında | | 80,40 | 40,20 |
| Xarici bankların POS–larında | | 567,89 | 283,95 |
| PAŞA Bank Mobil Əlavə ilə | Rabitə, kommunal, stasionar telefon, internet, TV, taksi, parkinq, sığorta | 50,46 | 25,23 |
| | İpoteka ödənişləri | 386,50 | 38,65 |
| Cəmi | | 1 205,70 | 448,26 |

**THY-da istifadə etmək üçün millərin tam olan hissəsi köçür (Black – 448). Qalıq millər növbəti ödənişlər etdikdə artır və tam olan hissəsi Müştərinin Türk Hava Yollarında olan mil hesabına köçürülür.*

## Əlavə 4

*MCC kodlar üzrə millərin hesablanmasını istisna edən ödənişlər*

| MCC Code | Definition |
|---|---|
| 1100 | ASAN Payments |
| 4011 | Dəmir yolları - yüklərin daşınması |
| 4111 | Sərnişin daşıması - bərə daxil olmaqla şəhərətrafı və yerli nəqliyyat xidmətləri |
| 4112 | Dəmir yolları - sərnişinlərin daşınması |
| 4131 | Avtobus xətləri |
| 4829 | Pul köçürmələri |
| 4900 | Mənzil-kommunal xidmətlər |
| 5993 | Tütün mağazaları |
| 6010 | POS-terminal vasitəsilə nağdlaşdırma əməliyyatları |

| | |
|---|---|
| 6011 | Bankomat vasitəsilə nağdlaşdırma əməliyyatları |
| 6012 | Kredit ödənişi, hesaba mədaxil əməliyyatları, pul köçürmələri |
| 6050 | Maliyyə insitutları |
| 6051 | E-cüzdan balans artırma və digər maliyyə xidmətləri |
| 6211 | Qiymətli Kağızlar bazarında broker xidmətləri |
| 6529 | Əvvəlcədən ödənilmiş kartlar üzrə məsafədən balans artırılması - Maliyyə təşkilatları |
| 6530 | Əvvəlcədən ödənilmiş kartlar üzrə məsafədən balans artırılması - Təsərrüfat subyekti |
| 6531 | Xidmətlərə görə ödəniş - pul köçürmələri |
| 6532 | Ödəniş əməliyyatı - maliyyə institutları |
| 6533 | Ödəniş əməliyyatı – satıcı |
| 6536 | Kartdan karta pul köçürmələri – Yerli köçürmələr |
| 6537 | Kartdan karta pul köçürmələri – Ölkəxarici köçürmələr |
| 6538 | Kartdan karta pul köçürmələri - silinmə |
| 6540 | Bank olmayan təşkilatlara tərəfindən emissiya edilmiş əvvəlcədən ödənilmiş kartlarının balans artırılması xidməti |
| 7273 | Tanışlıq və eskort xidmətləri |
| 7800 | Hökumət lotereyaları (yalnız ABŞ) |
| 7801 | İnternet üzərindən qumar oyunları (yalnız ABŞ) |
| 7802 | At/Tazı yarışları (yalnız ABŞ) |
| 7841 | Video icarəsi |
| 7995 | Qumar |
| 8398 | Xeyriyyə və Sosial Xidmətlər - Faydalanma |
| 8651 | Siyasi təşkilatlar |
| 8661 | Dini təşkilatlar |
| 9211 | Uşaq dəstəyi, aliment ödənişi daxil olmaqla qanuni ödənişlər |
| 9222 | Cərimələr |
| 9223 | Girov və istiqrazlar üzrə ödəmələr |
| 9311 | Vergi ödənişləri |
| 9399 | Hökumət ödənişləri - təsnifləşdirilməyən |
| 9402 | Poçt xidmətləri - yalnız hökumət |
| 9406 | Hökümət Lotereyaları |
| 9754 | At/Tazı yarışları (yalnız ABŞ) |